Qaçaq Nəbi hərəkatı

Nəbi ilə bağlı araşdırmalar sona çatıbmı?

XIX əsrin sonları və XX əsrin əvvəllərində Azərbaycanda kəndlilərin, zəhmətkeş və sadə insanların hakimiyyətdə olan siniflər - yeni xanlar, yeni bəylər, mülkədar və çar məmurları tərəfindən hədsiz istismara məruz qalmaları, vergilərin artırılması, haqsızlıq, insanların vəziyyətinin get-gedə pisləşməsi ilə əlaqədar ölkədə kəndli-qaçaq hərəkatı başlandı. Belə hərəkatların başçılarından - Qaçaq Nəbi, Qaçaq Kərəm, Qaçaq Adıgözəl, Qaçaq Yusif, Qaçaq Zahid, Qandal Nağı və başqalarını göstərmək olar. Qaçaq hərəkatı Bakı, Yelizavetpol quberniyalarını, Naxçıvan qəzasını, Zaqatala dairəsini, Zəngəzur qəzasını və s. ərazilərə bürümüşdü. Azərbaycanın qəhrəman igid oğlanları xalqa qarşı edilən haqsızlıqlara dözməyərək, kəndli, muzdur və sadə adamlardan ibarət kiçik dəstələr düzəldir, dağlara, meşələrə çəkilir və amansız bəylərə, xanlara, mülkədar və sələmçilərə, həmçinin tacir və çar məmurlarına qarşı mübarizəyə başlayırdılar. Bu dəstələr onların var-dövlətini əllərindən alıb kasıblara paylayırdılar. Onlar xalqın mənafeyi uğrunda mübarizəyə qalxdıqları üçün sadə adamlar onlara böyük hörmət bəsləyir, qaçaqları ərzaq, silah, atla təmin edir və hətta lazım gəldikdə, onları öz evlərində gizlətməkdən belə çəkinmirdilər. Belə qaçaqları quldur, oğru, yol kəsənlərlə səhv salmaq əsla düzgün olmazdı. Quldurlar daim öz mənafelərini güdür və qarşılarına çıxan hər kəsin var-dövlətini talayırlar. Lakin adları qeyd edilən qaçaqlar isə xalqın yolunda çalışıb-vuruşanlardır.

Bu cür qaçaqlar fəaliyyət göstərdikləri bölgələrdə öz qəhrəmanlıqları ilə ad çıxarmışlar. Çar hökuməti onlara qarşı 1894-cü ildə plüm hökmü çıxararaq, onları təqib edir, əhalini ucdantutma tərksilah edirdi. Lakin bununla belə, qaçaqları məhv edə bilmirdi. Qaçaq hərəkatından qorxuya düşən kəmfürsət varlılar isə hər cür vasitəyə əl ataraq, qaçaqları məhv etməyə çalışırdılar.

Uzun müddət Zəngəzurda, Naxçıvanda, İranda, Türkiyədə fəaliyyət göstərən qaçaqlardan biri də xalq qəhrəmanı Qaçaq Nəbi və onun xanımı, xalq qəhrəmanı Həcər olmuşdur. Qaçaq Nəbi haqqında Azərbaycavn Sovet Ensiklopediyasının 3-cü cildində yazılan məlumatları və həmin bölgələrin yaşlı adamlarından öyrəndiyim məlumatları oxucularla bölüşmək istəyirəm: yazılanlara əsasən, Nəbi Alı oğlu (təqribən) 1854-cü ildə Zəngəzur qəzasının Aşağı Mollu kəndində (indiki Qubadlı rayonu ərazisi) doğulmuşdur. O, XIX əsrdə Azərbaycanda məşhur kəndli hərəkatı başçısı, xalq qəhrəmanı, uşaqlıqda çoban, sonralar muzdur olmuşdur. Kəndlilərin torpaqlarını tutmaq istəyən, yerli mülkədarlara müqavimət göstərdikdən sonra (təqribən 1875-ci illərdən) qaçaq düşmüşdür. Kəndlilərdən dəstə yaradaraq, elin qoçaq oğlanlarını başına toplamış, Naxçıvan, Zəngəzur qəzalarında İran və Türkiyədə fəaliyyət göstərmişdir. Onun dəstəsində milliyyətindən asılı olmayaraq, əsl vətənpərvərlər, haqsızlığa dözməyənlər iştirak edirdilər. İgidliyi və cəsarəti ilə şöhrət qazanmış arvadı Həcər xanım qaçaq Nəbinin sadiq silahdaşı olmuşdur. Amansız bəylərə, işğalçı çar hökuməti məmurlarına, kəmfürsət tacir və sələmçilərə, bir sözlə, haqsızlığa qarşı barışmaz mübarizə aparmışdır.

Qaçaq Nəbi yoxsul kəndlilərin, sadə zəhmətkeş insanların mənafeyini müdafiə edir, zalım hökmdarların, qaniçən varlıların var-dövlətini, torpaqlarını alıb yoxsullara paylayırdı. O zaman çar hökuməti Qaçaq Nəbiyə qarşı polis, kazak dəstələri göndərsə də, onu ələ keçirə bilmirdi. Çünki belə xeyirxah qaçaqları xalq müdafiə edir, qoruyub saxlayırdı.

Qaçaq Nəbi ömrünün 20-22 ilini haqsızlığa qarşı mübarizəyə həsr etdi. Bu illər ərzində hökumət tərəfindən görülən bütün tədbirlər uğursuzluqla nəticələndi. 1895-ci ilin sentyabrında Naxçıvanın qəza rəisi, Ordubad taciri Paşa Hacı Fərəc oğluna (İran Azərbaycanının Urmiya şəhərində ticarətlə məşğul idi) Qaçaq Nəbini öldürməyi tapşırmışdı. Paşa Hacı Fərəc oğlu özü Qaçaq Nəbi ilə görüşməkdən qorxaraq, qaçaqlardan ikisini sui-qəsdə cəlb edə bilmişdi. Pula satılmış Şahüseyn və Kərbəlayı İman tərəfindən Qaçaq Nəbinin Kərbəla şəhərindən qayıdarkən, öldürüldüyü qeyd edilir. Bəzi müəlliflər də Qaçaq Nəbinin İrandakı çar konsulu və İran inzibati idarələrinin birgə tədbiri ilə öldürüldüyünü göstərirlər. Ancaq bu, dəqiq məlumat deyildir. Qaçaq Nəbinin İranda döyüşdə ağır yaralanaraq, huşsuz halda əsir düşməsi və uzun müddət həbsdə olması, həbsdən qaçaraq, bir müddət hökumətdən gizlənməsi haqda da sözsöhbətlər gəzirdi.

Qaçaq Nəbidən sonra onun dəstəsinə Şimali Azərbaycanda bir müddət Həcər başçılıq edir. Azərbaycanda Xalq Cümhuriyyətinin qurulması, sonradan Şura hökumətinin gəlməsi ilə əlaqədar onun dəstəsi dağıdılaraq, öz fəaliyyətini dayandırmışdır.

Xalq qəhrəmanı Qaçaq Nəbi haqqında ilk pyesi məşhur alovlu vətənpərvər, ərəb, fars, türk, rus dillərini əla bilən, savadlı ruhani, üsyançı folklorşünas, Zəngəzurun həmin dövr Qazısı olmuş, rus və erməni, bolşevik daşnak işğalçılarına qarşı mübarizə aparmış Bəhlul Əfəndiyev (Bəhlul Behcət) yazmışdır.

Sonra məşhur folklorşünas alim, f.e. doktoru Əhliman Axundov materiallar toplayıb Qaçaq Nəbi dastanını yazmışdır. O, Zəngəzur və Naxçıvanı kəndbəkənd gəzərək, Qaçaq Nəbini görənlərdən, Mollu kəndinin yaşlı insanlarından məlumat toplamış, onun fəaliyyəti haqqında bilgiləri olan adamların dillərindən eşitdiklərini qələmə alaraq, eyni zamanda, bu qəhrəman haqqında şifahi və yazılı mənbələrdən də istifadə etməklə, çox böyük zəhmət hesabına Qaçaq Nəbi dastanını ərsəyə gətirmişdir.

Xalq şairi Süleyman Rüstəm "Qaçaq Nəbi" pyesini yazmışdır.

Xalq yazıçısı Süleyman Rəhimov Qaçaq Nəbinin qəhrəmanlıqlarından öz əsərlərində söz açmışdır.

Yazıçı Cəlal Bərgüşad "Boz atın belində" romanını Qaçaq Nəbiyə həsr etmişdir.

Qaçaq Nəbi haqqında nə qədər əsərlər yazılsa da, onun ölümü haqda dəqiq məlumat yoxdur. Bu da onunla əlaqədardır ki, Şimali Azərbaycanda Sovet hökuməti qurulandan sonra İrana gediş-gəliş məhdudlaşdırıldı, sərhədlər möhkəmləndirildi və onun ölümü, sonrakı taleyi, fəaliyyəti haqqında düzgün məlumat əldə edilmədi. Ancaq Zəngəzurda, onun fəaliyyət göstərdiyi ərazilərdə Qaçaq Nəbinin doğulduğu Aşağı Mollu kəndinin yaşlı insanlarının danışıqlarından və onların verdiyi məlumatlardan aydın olur ki, Qaçaq Nəbi həmin dövrdə ölməyib. O, bir müddət İranda yaşamışdır, onun orada böyük bir nəsli vardır. Çünki bunu sübut edən faktlar mövcuddur. Bu faktlardan biri odur ki, 1988-ci ildə İrandan Cəmşid adlı bir kişi Aşağı Mollu kəndinə gəlibmiş. Cəmşid kişinin dediklərindən belə məlum olur ki, o, Qaçaq Nəbinin İranda yaşayan yaxın qohumlarından biridir. Orada Qaçaq Nəbinin böyük bir nəsli yaşayır. Cəmşid kişi bir aya yaxın Aşağı Mollu kəndində, Qaçaq Nəbinin yaxın qohumu Mehdi kişinin oğlu, o vaxtlar taksi sürücüsü işləyən Möhsüm kişigilin evində qalaraq, kənddən çoxlu məlumat toplayıb getmişdi.

Bundan başqa, Qaçaq Nəbinin Naxçıvanda da törəmələrinin, qohum-əqrəbasının olduğunu Aşağı Mollu kəndinin yaşlı insanları təsdiq etmişlər. Quliyev Alxan kişinin, Həsənova Səltənətin (130 il ömür sürmüşdür), Əsgərova Gövhərin (125 il yaşamışdır), Əhmədova Gilənin (117 yaşında dünyasını dəyişmişdir) dediklərindən belə məlum olmuşdur ki, Qaçaq Nəbinin Naxçıvanda da qohumları vardır. Gövhər xala söyləyirdi ki, onu Sarıyataq kəndindən Həcərin özü atla gəlin gətirib. Yol gələrkən, at çapmaq, güllə atmaq yarışı keçirilir, bu yarışda heç kəs Həcərin atını ötə bilmir və onunla gülle atmaqda bacarmırlar.

Gövhər xala deyirdi ki, Həcərin uzun bir tüfəngi var idi, üstündə də uzağı yaxın göstərən bir güzgüsü. Bununla o, atını çapa-çapa göynən gedən quşları vurub salırdı. Atı dördnala çaparkən, atdan düşüb, minirdi. Bunu onunla gedən kişilərin heç biri bacarmadı. Kəndə çatanda, qaynatam Həcərin atının ayaqları altında qurban kəsdi. Ona bir kəlağayı bağışladı.

Qaçaq Nəbinin doğulduğu Aşağı Mollu kəndi bir neçə tayfadan ibarət olub. Bunlardan, Kərbəlayı Cəfərlər, Korlu Məşədi İsmayıllılar, İsaxlılar, Məmmədlər, Hüseynxanlılar, İbişlər və sağ Alonun, Qaçaq Nəbinin tayfalarının adı Köçərilərdir. Bu tayfaya Nəbinin qardaş və bacılarının törəmələri, Molla Əhmədin törəmələri, Mürsəl kişinin törəmələri, Əlabbas kişinin törəmələri, Alıxan kişinin törəmələri, köçərilər adlanırdı. O ki qaldı Qaçaq Nəbinin Naxçıvanla bağlılığına, bu barədə bir dəfə təxminən, 1980-ci illərdə, "Elm və həyat" jurnalında bir məqalə getmişdi. Orada göstərilirdi ki, Qaçaq Nəbinin Naxçıvanda törəmələri, qohumları vardır. Yuxarıda göstərilən Zəngəzur yaylaqlarının o biri tərəfi Naxçıvan ərazilərdir. Qaçaq Nəbi dəstəsi ilə oradan tez-tez Şahbuza, Ordubada, İrana gedərmiş. Kəndin yaşlılarının dediyinə görə, orada onun qohumları, dostları varmış.

Qaçaq Nəbi Naxçıvandan keçib Türkiyəyə də gedirmiş. Xalq qəhrəmanının Naxçıvan və İranla bağlılığı barədə Naxçıvan şəhərindən olan Əli Şamilovun "Huşəng Qaçaq Nəbinin nəticəsidirmi?" adlı məqaləsində danışılır. Belə ki, burada XIX əsrin ortalarında yaşamış uzunömürlü Telli qarıdan söhbət açılır və Qaçaq Nəbinin adı çəkilir. Bu məqalədən sonra Huşəng Nəbizadə Naxçıvana gəlmiş, ağsaqqal və ağbirçəklərdən eşitdikləri barədə məlumat vermişdir. Onun söylədiyinə görə, babası Məmi Arazın bu tayından olan Nəbi Alı oğlunun oğludur. Zəngəzurlu Qaçaq Nəbi Alı oğlunun qaçaqlıq dövrü də elə həmin vaxta təsadüf edir.

Lakin Qaçaq Nəbinin ömür yolu barədə əlimizdə hələ tam, bütöv bir məlumat yoxdur. Bu barədə daha çox məlumat məşhur folklorşünas alim, f.e. doktoru Əhliman Axundovun "Qaçaq Nəbi" dastanıdır. Bir də Azərbaycan Sovet Ensiklopediyasının 3-cü cildindən götürülmüş yuxarıda göstərilən məlumatlardır.

Aşağı Mollu kəndinin yaşlı adamları deyirlər ki, Qaçaq Nəbinin Fransada hazırlanmış xüsusi şallağı, onun arxasında isə özünə aid möhürü vardır. Qaçaq Nəbi verdiyi fərmanları həmin şalladakı möhürlə təsdiqləyirmiş. Onun şəkillərini isə Fransadan Qafan mis mədənlərinə gəlmiş fransız fotoqraflarının çəkdiyi deyilir. Qafan mis mədənləri əvvəllər fransızlara, sonradan isə Qaçaq Nəbinin həmkəndlisi, Bəylər bəyə məxsus idi. Bu mədənlərin Bəylər bəyin əlinə keçməsində Qaçaq Nəbinin də böyük rolu olmuşdur.

Bəylər bəy Zəngəzurda Qafan mis mədənlərində işləyərkən, bu mədəndə istifadə olunan barıt, partlayıcı maddələr Türkiyədən İran və Culfadan, Ordubaddan keçirilərək gətirilirdi. Yolda isə quldurlar karvanı soyub talayırdılar. İmkan vermirdilər ki, həmin maddələr mənzil başına çatdırılsın. Bu barədə Bəylər bəy həmkəndlisi Qaçaq Nəbiyə məlumat verir və partlayıcı maddələrin mədənə gətirilməsinə kömək etməsini xahiş edir. Qaçaq Nəbi bu işə qoşulandan sonra karvanın yolu daha kəsilmir. Partlayıcı maddələr rahat şəkildə mədənə gətirilir və mədənin işi yaxşılaşmağa başlayır.

Bir neçə ildən sonra Bəylər bəy Qaçaq Nəbiyə bildirir ki, biz o vaxtdan səni Qafan mis mədənlərinə pay etmişik, gəl, var-dövlətinə sahib çıx. Bunu eşidən Qaçaq Nəbi Qafan mis mədənlərinə gəlir, Bəylər bəylə görüşüb deyir ki, mən qaçaq adamam, səhmləri sizə, pulları isə kasıblara verirəm. Bəylər bəy onun dediyinə əməl edərək, səhmləri özünə, pulları isə kasıblara paylayır.

Qaçaq Nəbinin atası Alı kişinin 10 uşağı olmuşdur. Qaçaq Nəbigil üç qardaş, yeddi bacı olublar. Qardaşları Mehdi və Məhərrəm olub. Mehdinin övladı olmayıb, belə ki, o, evlənməmiş, döyüşdə öldürülmüşdür. Məhərrəmin isə üç övladı olmuşdur. Mehdi, Nəbi və Məhərrəm. Məhərrəmdən Məmiş, Əlabbas olub. Məmişin isə üç oğlu, Mehdi, Nəbi, Məhərrəm, Ağca adlı bir qızı olmuşdur. Onlardan Mehdi, Nəbi Aşağı Mollu kəndində vəfat etmişlər. Məhərrəm isə hazırda Sumqayıt şəhərində yaşayır, övladı olmayıb. Kəndin yaşlı sakinlərindən biridir. Məmiş oğlu Mehdinin üç oğlu, dörd qızı, Məmiş oğlu Nəbinin isə iki qızı olmuşdur. Nəbinin bacısının biri Mollu kəndi ilə üzbəüz yerləşən Həmzəli kəndinə ərə gedib. Oğlu Sədirxan olub. Qaçaq Nəbinin bir bacısı, Quliyev Alıxan kişinin anasıdır. Bir bacısı Ağcəbədi rayonu ərazisinə ərə gedib. Bacısının biri Naxçıvana ərə gedib. Biri Zilanlıya, biri Qayalıya, biri isə o vaxt Şotlanlı kənd sakininə ərə getmişdir.

Şotlanlı kəndi Həkəri çayının sol sahilində, Çaytumas, Xanlıq kəndləri arasında yerləşirdi. Bu kəndin Zilanlı, Qayalı, Mollu kəndləri ilə qohumluq əlaqələri var idi. Həmin kəndlərin əhalisi bir-birlərinə əmioğlu deyirlər. Bu kəndlərin yaşlı əhalisinin yaddaşında Qaçaq Nəbinin, Həcərin qəhrəmanlıqları haqda çoxlu xatirələr qalmışdır. Qaçaq Nəbinin qəhrəmanlıqları ilə bağlı açılmamış səhifələr hələ çoxdur.

Hazırda ölkələr arasında gediş-gəliş asanlaşıb. Yəqin ki, tədqiqatçılar nə vaxtsa bu məlumatları araşdırıb üzə çıxaracaqlar. Şübhə yoxdur ki, o vaxtlar Azərbaycanda qoçaqlığı, igidliyi ilə dillər əzbəri olmuş qəhrəmanlardan biri və daha cəsuru Qaçaq Nəbi olmuşdur. İnanırıq ki, onun öz xalqı qarşısında göstərdiyi şücaəti, etdiyi alicənablığı, xeyirxahlığı tarixin və Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaqdır.

Toplayıb nizamlayan:
Nizami YOLÇUOĞLU